# Xalqımız Xocalının qisasının alınmasının qürurunu yaşayır

Müzəffər Ali Baş Komandanımız daxil olmaqla bütün Azərbaycan xalqı - böyükdən kiçiyə hər kəs Xocalının qisasının alınmasının qürurunu yaşayır. İlk dəfədir ki, soyqırımı qurbanlarının xatirəsi onların öz doğma yurdlarında anıldı. Prezidentimizin vurğuladığı kimi "o qanlı tarixə qayıdanda, o dəhşətli video və fotosənədlərə baxanda bizi qəzəb boğur, 30 il yox, 300 il keçsə də, bu qəzəb bizi buraxmayacaq". Əlbəttə, Azərbaycan xalqı Xocalı soyqırımını heç zaman unutmayacaq. Ona görə yox ki, biz də gələcək nəsilləri haylarsayağı nifrət və qisasçılıq zəminində yetişdirməliyik. Əlbəttə ki, yox. Biz böyük xalqıq, Xocalı soyqırımını törədənlərin dinc, əliyalın adamlara qarşı etdikləri vəhşiliyə, qəddarlığa, milli ləyaqətsizliyə heç vaxt yol verə bilmərik. Amma bizə qarşı bir daha belə bir vəhşiliyin törədilməsinə də qətiyyən yol verməyəcəyik. Xocalı soyqırımı və Birinci Qarabağ savaşı zamanı baş verən digər qətliamlar da məhz buna görə heç zaman unudulmamalıdır. Bu ölkədə hər kəs artıq fərqindədir ki, zəif düşəcəyimiz halda yenidən ötən əsrin əvvəllərindəki və axırındakı vəziyyətlə üzləşərək yeni faciələr yaşaya bilərik, çünki düşmən xislətini dəyişməyib və dəyişənə də oxşamır. Fikrimcə, Prezidentin görüşdə xocalılılara və onların timsalında xalqımızın bütün nümayəndələrinə çatdırmaq istədiyi əsas ismarıc bu idi.

→ 7

2024.- 28 fevral, № 45.- S.1, 7.

RƏSMİ DÖVLƏT QƏZETİ AZƏRBAYCAN

# Xalqımız Xocalının qisasının alınmasının qürurunu yaşayır

**"Prezident İlham Əliyevin Xocalıya səfəri işğaldan azad edilmiş digər ərazilərimizdə olduğu kimi, təməlqoymadan, quruculuq işləri ilə tanışlıqdan və keçmiş, eləcə də gələcək sakinlərin bir qismi ilə görüşdən ibarət idi. Amma bu, hay qəddarlığının ən iyrənc üzünü görmüş Xocalımıza soyqırımının anım günü baş tutduğuna görə səfərin əhvali-ruhiyyəsi fərqli idi".**



Bu fikirləri qəzetimizə açıqlamasında Milli Məclisin deputatı Sahib Alıyev deyib. Deputat qeyd edib ki, Müzəffər Ali Baş Komandanımız daxil olmaqla bütün Azərbaycan xalqı - böyükdən kiçiyə hər kəs Xocalının qisasının alınmasının qürurunu yaşayır: "İlk dəfədir ki, soyqırımı qurbanlarının xatirəsi onların öz doğma yurdlarında anıldı. Prezidentimizin vurğuladığı kimi, "o qanlı tarixə qayıdanda, o dəhşətli video və fotosənədlərə baxanda bizi qəzəb boğur, 30 il yox, 300 il keçsə də, bu qəzəb bizi buraxmayacaq". Əlbəttə, Azərbaycan xalqı Xocalı soyqırımını heç zaman unutmayacaq. Ona görə yox ki, biz də gələcək nəsilləri haylarsayağı nifrət və qisasçılıq zəminində yetişdirməliyik. Əlbəttə ki, yox. Biz böyük xalqıq, Xocalı soyqırımını törədənlərin dinc, əliyalın adamlara qarşı etdikləri vəhşiliyə, qəddarlığa, milli ləyaqətsizliyə heç vaxt yol verə bilmərik. Amma bizə qarşı bir daha belə bir vəhşiliyin törədilməsinə də qətiyyən yol verməyəcəyik. Xocalı soyqırımı və Birinci Qarabağ savaşı zamanı baş verən digər qətliamlar da məhz buna görə heç zaman unudulmamalıdır. Bu ölkədə hər kəs artıq fərqindədir ki, zəif düşəcəyimiz halda yenidən ötən əsrin əvvəllərindəki və axırındakı vəziyyətlə üzləşərək yeni faciələr yaşaya bilərik, çünki düşmən xislətini dəyişməyib və dəyişənə də oxşamır. Fikrimcə, Prezidentin görüşdə xocalılılara və onların timsalında xalqımızın bütün nümayəndələrinə çatdırmaq istədiyi əsas ismarıc bu idi".

Deputat bildirib ki, dövlət başçısının ikinci əsas mesajı isə haylara və onlardan geosiyasi alət kimi faydalananlara yönəlmişdi: "Çox açıq mətnlə çatdırıldı ki, onun-bunun qucağına sığınan Ermənistanın bizim bütün şərtlərimizi qəbul etməkdən başqa yolu yoxdur. "Bütün şərtlər" deyiləndə fikrimcə, işğal altında qalan 8 kəndimizi geri qaytarmaq, təhlükəsizliyimizə təhdid yaradacaq səviyyədə militarlaşmamaq, üzərinə götürdüyü öhdəliyə əməl edərək Zəngəzur dəhlizini açmaq və ən əsası, Azərbaycana qarşı ərazi iddialarına birdəfəlik son qoymaq nəzərdə tutulur. Lakin xəstə zehniyyətli və subyektivlikdən uzaq olan Ermənistanın bu xəbərdarlıqdan düzgün nəticə çıxaracağı şübhəlidir. Lakin o da unudulmamalıdır ki, Prezidentin ötən il mayın 28-də Laçında qanunsuz silahlı birləşmələrini Qarabağdan çıxarması haqda Ermənistana etdiyi xəbərdarlığın və ondan öncəkilərin qulaqardına vurulması qarşı tərəfə necə baha başa gəldi. Bundan nəticə çıxarmayacaqlarsa, bu, artıq ermənilərin öz problemidir".

Sahib Alıyev həmçinin onu da söyləyib ki, şərti sərhəddə, Laçın yolunda, Qarabağda keçirilən əməliyyatlar zamanı Ermənistanın qucağına sığındığı dairələr yenə də onlara fayda verə bilməyəcəklər: "Azərbaycan güclüdür və beynəlxalq normalar çərçivəsində hərəkət edir. Xocalıdakı çıxışında da Prezidentimiz bildirdi: "Həm 2020-ci ildə, həm keçən ilin sentyabr ayında apardığımız hərbi əməliyyatlar bütün beynəlxalq humanitar hüquqa uyğun şəkildə aparılmışdır və bunu hər kəs bilir və heç kim bizə heç bir irad tuta bilmir". Əminəm ki, indən sonra da kimsəyə bizə irad tuta biləcək fakt verməyəcəyik. Çünki dövlət başçımızın da tez-tez vurğuladığı kimi, Azərbaycan xalqı böyük və qürurludur. Həmçinin bu gün biz, sadəcə, böyük xalq deyilik, həm də böyük liderlə irəliləyən qətiyyətli xalqıq".

***Nəzrin QAFARZADƏ,***
***"Azərbaycan"***